# FİZİKİ ŞƏXSLƏRƏ PUL VƏSAİTLƏRİNİN GİROVU ÜZRƏ KREDİTİN (KREDİT XƏTTİNİN) VERİLMƏSİNƏ DAİR 02Ə/23 SAYLI STANDART ŞƏRTLƏR

Bakı şəhəri 21.12.2023

Bu Standart Şərtlər Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən 14 dekabr 2010-cu il tarixdə verilmiş 73 saylı lisenziya, Azərbaycan Respublikasının qanunvericiliyi və öz Nizamnaməsi əsasında fəaliyyət göstərən “Unibank” Kommersiya Bankı ASC (bundan sonra – Bank) tərəfindən fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar olmayan kredit məhsullarından istifadə etmək niyyətini bildirdikləri və ya istifadə etdikləri halda onların Bankla münasibətlərini tənzimləyir. Bu Standart Şərtlər rezident və qeyri-rezident fiziki şəxslərə pul vəsaitlərinin girovu üzrə istehlak kreditinin verilməsi şərtləri və qaydalarını müəyyən edir.

## ƏSAS ANLAYIŞLAR:

**Aksept** - Standart Şərtləri tam və qeyd-şərtsiz qəbul etməsi barədə müştərinin ərizəsi;
**Müştəri** - bu Standart Şərtləri qəbul edən və Bankın bu Standart Şərtlərdə göstərilən xidmətlərindən istifadə etmək niyyətində olan və/və ya istifadə edən fiziki şəxs;
**Kredit -** müqaviləyə uyğun olaraq qaytarılmaq, müəyyən müddətə (müddətin uzadılması hüququ ilə) və faizlər və (və ya) müqavilədə göstərilən digər ödənişlər ödənilmək şərti ilə, təminatla və ya təminatsız müəyyən məbləğdə borc verilən pul vəsaiti;
**Standart məlumatlandırma forması** – Müştəriyə kredit (kredit xətti) verilməzdən əvvəl Bankın kağız və ya digər davamlı daşıyıcıda Müştəriyə təqdim etdiyi və kreditlə (kredit xətti ilə) bağlı məlumatların əks etdirildiyi, Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən təsdiq edilmiş forma. Standart məlumatlandırma forması bu Standart Şərtlərin tərkib hissəsi hesab olunur. Qanunvericiliklə nəzərdə tutulmuş hallarda Müştəriyə Standart məlumatlandırma forması təqdim edilmir;
**Davamlı daşıyıcı** - məlumatın məqsədlərinə uyğun müddət ərzində saxlanılmasına imkan verən və saxlanılan məlumatın dəyişiklik olmadan əks etdirilməsi mümkün olan istənilən vasitə;
**Əməliyyat günü –** Bankın daxili qaydaları ilə iş günü ərzində müştərilərə xidmət göstərilən vaxt; Bankın əməliyyat günü dedikdə, qanunvericilikdə müəyyən olunmuş iş günü ərzində saat 09:00-dan saat 15:00-a qədər olan dövr nəzərdə tutulur. Bankın əməliyyat günü tamamlandıqdan sonra icraata qəbul edilmiş xidmətlər növbəti iş günündə qəbul edilmiş hesab olunur və icra edilir;
**Komissiya haqqı** – Bank tərəfindən göstərilən xidmətlərə görə Müştəri tərəfindən ödənilməli olan, Bankın tarif dərəcələrinə və/və ya bu Standart Şərtlərin müddəalarına əsasən müəyyən edilən haqq.

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Standart Şərtlər 25 (iyirmi beş) il müddətinə Bankla Müştəri arasındakı kredit münasibətlərini tənzimləyir. Bank, bu müddətin sonunadək əqdin bağlanmasının qanunvericiliklə qadağan edilmədiyi istənilən formada, o cümlədən elektron üsulla (SMS, mobil tətbiq, elektron poçt adresi, elektron imza,

internet bankçılıq, səsli rabitə vasitəsi və s.) Müştəriyə dəfələrlə kredit rəsmiləşdirə bilər. Kreditin ayrılması şərtləri və qaydaları bu Standart Şərtlərin müddəaları ilə müəyyən edilir.

1.2. Bu Standart Şərtlər heç bir halda Bank tərəfindən Müştəriyə kreditin verilməsi vədi kimi təfsir oluna bilməz. Müştəri, kreditin alınması üçün Banka müraciət etdikdən sonra Bank, kreditin verilməsi barədə qərarı özü müstəqil surətdə verir və Müştəri, bu Standart Şərtlərə istinad edərək Bankdan kredit verilməsini tələb edə bilməz.

1.3. Bank, bu Standart Şərtlər çərçivəsində Müştəriyə aşağıda göstərilən kredit məhsullarını təklif edir:

1.3.1. "Sərbəst qrafikli nağd kredit" məhsulu

1.3.2. "Annuitet qrafikli nağd kredit" məhsulu

1.3.3. "Ödəniş kartı ilə kredit xətti" məhsulu

1.4. Müştəri, bu Standart Şərtləri qəbul etməklə onun tərəfindən seçilən kredit məhsulunun şərtlərinin tətbiq edilməsinə öz razılığını bildirir. Müştəri tərəfindən seçilən hər bir kredit məhsulu üzrə əlavə kredit müqaviləsi (bundan sonra "kredit müqaviləsi") bağlanılır və kreditin müddəti, məbləği, valyutası və illik faiz dərəcəsi (faktiki illik faiz dərəcəsi) həmin kredit müqaviləsi ilə tənzimlənir.

1.5. Bu Standart Şərtlər çərçivəsində verilən kreditin məqsədli təyinatı: istehlak.

1.6. Müştərinin fərdi identifikasiya nömrəsi (FİN kod) və/və ya Bank tərəfindən Müştəriyə təqdim edilən müştəri eyniləşdirmə nömrəsi (CIF kod) bu Standart Şərtlər çərçivəsində verilən kredit(lər) üzrə Müştərini eyniləşdirmək üçün istifadə olunur.

1.7. Bu Standart Şərtləri qəbul etmiş Müştəri burada göstərilən şərtlərlə və qaydada kredit əldə etmək üçün Banka müraciət etdikdə, Bank tərəfindən Müştəriyə kreditin məbləği və valyutası, qaytarılma müddəti və ödəniş şərtləri, kredit üzrə tətbiq edilən faizlərin illik dərəcəsi və/və ya digər ödənişlərin məbləği və onların tətbiq edilmə şərtləri, həmçinin faktiki illik faiz dərəcəsi və onun hesablanmasına daxil edilən bütün ödənişlər, Müştəri tərəfindən edilməli olan ödənişlərin məbləği, sayı və dövriliyi, habelə yetərli miqdarda olmayan və ya artıq miqdarda edilən ödənişlərin öhdəliyin icrasından silinmə ardıcıllığı, o cümlədən qanunvericiliklə nəzərdə tutulmuş digər məlumatların əks olunduğu standart məlumatlandırma forması təqdim edilir. Müştəri, standart məlumatlandırma formasını təsdiq etməklə həmin standart məlumatlandırma formasında göstərilən şərtlərlə kredit verilməsinə razılığını bildirir və Müştəri ilə müvafiq kredit müqaviləsi bağlanılır. Müştəri tərəfindən təsdiq edilmiş standart məlumatlandırma forması və kredit müqaviləsi bu Standart Şərtlərin tərkib hissəsi hesab olunur.

## 2. KREDİTİN, KREDİT FAİZLƏRİNİN VƏ DƏBBƏ PULUNUN HESABLANMASI VƏ QAYTARILMA QAYDALARI

2.1. Kreditin verildiyi gün kredit məbləğinin Müştərinin hesabına mədaxil olunduğu gün hesab edilir. Kreditin qaytarıldığı gün kredit üzrə əsas borcun və hesablanmış faizlərin, o cümlədən dəbbə pulunun, komissiya haqlarının və bu Standart Şərtlərdə, standart məlumatlandırma formasında və/və ya kredit müqaviləsində göstərilmiş digər ödənişlərin Bankın bu məqsədlə açdığı hesaba mədaxil olunduğu tarix hesab olunur. Əgər Müştərinin hesabı üzərinə qoyulmuş həbs və ya icra (ödəniş) sənədi (o cümlədən, vergi sərəncamı) səbəbilə Müştəri tərəfindən həyata keçirilən ödəniş dövlətin, dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin xeyrinə silinərsə və ya vəsait dondurularsa, kredit üzrə ödənişlər həyata keçirilməmiş sayılır.

2.2. Kreditin və kreditdən istifadəyə görə faizlərin qaytarılması kreditin verildiyi valyutada həyata keçirilir.

2.3. Kreditin və kreditdən istifadəyə görə faizlərin Müştəri tərəfindən Banka qaytarılmasının dövriliyi aşağıdakı kimi müəyyən olunur:

2.3.1. "Sərbəst qrafikli nağd kredit" və "Ödəniş kartı ilə kredit xətti" məhsulu üzrə Müştəri tərəfindən istifadə edilmiş kredit üzrə hesablanmış faizlər hər ayın ilk günündən ayın 10-dək ödənilməlidir. Əsas borc kredit müqaviləsinin bitmə tarixinə qədər ödənilməlidir.

2.3.2. "Annuitet qrafikli nağd kredit" məhsulu üzrə ödənişlərin dövriliyi tərəflər arasında yazılı razılaşdırılmış və bu Standart Şərtlərin və kredit müqaviləsinin ayrılmaz tərkib hissəsi sayılan ödəniş şərtlərinin əks olunduğu ödəniş cədvəli ilə müəyyən olunur.

2.4. Ödəniş günü qeyri-iş gününə təsadüf etdikdə, kredit və onun faizi, həmçinin standart məlumatlandırma formasında və/və ya kredit müqaviləsində müəyyən olunan digər ödənişlər həmin gündən sonrakı iş günündə ödənilmiş hesab edilir və icra edilir.
2.5. Kredit üzrə faizlər standart məlumatlandırma formasında və/və ya kredit müqaviləsində göstərilən illik faiz dərəcəsinin üç yüz altmışa bölünərək, kreditin verildiyi faktiki günlərin (kreditin verildiyi gün daxil, qaytarıldığı gün isə xaric olmaqla) sayına vurulmaqla hesablanır.
2.6. Faizlər, o cümlədən gecikdirilmiş vaxt üçün hesablanan faizlər və digər haqlar yalnız borcun qaytarıldığı günədək ödənilməmiş əsas borc qalığı məbləğinə hesablanır.
2.7. Müştəri və ya onun xeyrinə üçüncü şəxs tərəfindən ödənilən pul vəsaiti birinci növbədə Bank tərəfindən ödənilən dövlət rüsumu və xidmət haqlarının, eləcə də komissiya haqlarının, ikinci növbədə ödəniş tarixinə olan vəziyyət üzrə dəbbə pulunun üçüncü növbədə mövcud kredit faizlərinin və dördüncü növbədə kreditin (kredit xəttinin) əsas məbləğinin ödənilməsinə yönəldilir.

## 3. KREDİTİN VAXTINDAN ƏVVƏL TƏLƏB EDİLƏ BİLDİYİ HALLAR

3.1. Bank, aşağıdakı hallarda kreditin (o cümlədən kreditin vaxtından əvvəl tələb edildiyi günədək borcla bağlı Banka ödənilməli olan faiz və/və ya digər ödənişlərin) vaxtından əvvəl qaytarılmasını Müştəridən tələb edə, kredit müqaviləsinə birtərəfli qaydada vaxtından əvvəl xitam verə, o cümlədən kreditin təminatı kimi çıxış edən girov predmetinə (pul vəsaitinə) tutma yönəltməklə akseptsiz qaydada silə bilər:
3.1.1. Müştərinin əmlak vəziyyətinin əhəmiyyətli dərəcədə pisləşməsi (o cümlədən müqavilə bağlanılmazdan əvvəl baş vermiş və müqavilə bağlanılan anadək aradan qaldırılmamış pisləşmə Banka sonradan məlum olduqda) və ya Müştərinin Banka hər hansı yanlış məlumat verməsi səbəbindən borcun vaxtında qaytarılmayacağını güman etməyə əsaslar olduqda;
3.1.2. Vaxtı çatmış borcun (faizlər və/və ya haqlar daxil olmaqla) 90 (doxsan) gün və ya daha çox müddətə gecikdirilməsi, yaxud borcun (faizlər və/və ya haqlar daxil olmaqla) ödənilməsi müddətlərinin ardıcıl olaraq iki dəfə pozulması (90 (doxsan) gündən az olmamaqla);
3.1.3. Müştəri borc öhdəliyinin icrasının təmin edilməsi üzrə vəzifəsini yerinə yetirmədikdə, Bankın cavabdeh olmadığı hallarla əlaqədar təminat itirildikdə (məhv olduqda, xitam verildikdə və s.) və yaxud dəyəri azaldıqda (o cümlədən qarantın və ya zaminin əmlak vəziyyəti əhəmiyyətli dərəcədə pisləşdikdə) və bu hallarda borcun vaxtında qaytarılmayacağını güman etməyə əsaslar olduqda;
3.1.4. Müştəri, Banka borcun təyinatı üzrə istifadə edilməsinə nəzarət etməyə imkan vermədikdə və ya borc təyinatı üzrə istifadə olunmadıqda.
3.2. Standart Şərtlərin 3.1.3-cü bəndi kredit öhdəliyinin icrasının təminatının itirilməsi və yaxud dəyərinin azalması hallarına yalnız bu şərtlə tətbiq edilir ki, Müştəri Bank tərəfindən tələb irəli sürüldükdən sonra iki ay ərzində təminatı əvəz etməmiş və ya əlavə təminat təqdim etməmiş olsun.
3.3. Bank, bu Standart Şərtlərin 3.1.1-3.1.4-cü bəndlərində nəzərdə tutulmuş halların baş verməsini və ya mövcudluğunu müəyyən etdikdən sonra Müştəriyə kreditin və kreditdən istifadəyə görə hesablanmış faizlərin, həmçinin standart məlumatlandırma formasında və/və ya kredit müqaviləsində nəzərdə tutulmuş digər ödənişlərin ödənilməsinə dair yazılı bildiriş göndərir və Müştəri bu bildirişi aldığı andan 10 (on) təqvim günü müddətində tələb olunan məbləği Banka ödəməlidir.
3.4. Bu Standart Şərtlərin 3.1-ci bəndində göstərilən hallarda, o cümlədən öhdəliyin tam və ya lazımınca icra edilməməsi ilə əlaqədar girov predmetinə tutma yönəldildikdə girov predmeti əmanət məbləği olarsa, həmin əmanət məbləğinə əmanət müqaviləsinə uyğun olaraq əmanətin vaxtından əvvəl tələb edilməsi hallarında nəzərdə tutulmuş illik faiz dərəcələri tətbiq edilir.
3.5. Girov predmeti olan əmanət məbləğinə kredit müqaviləsindən irəli gələn öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi ilə əlaqədar tutma yönəldilməsi üçün müvafiq əmanət hesabında olan əmanət məbləği əmanət üzrə faizlərin hesablandığı cari hesaba köçürülür və həmin hesabda olan pul vəsaitindən öhdəliyin icrası təmin edilir. Əgər girov predmeti iki və daha çox kreditin təminatıdırsa, bu zaman icrası gecikdirilməmiş digər kreditlər üzrə öhdəliyin icrasını təmin etmək məqsədilə pul vəsaitləri müvafiq cari hesabda saxlanılmaqla cari hesab bloklaşdırılır və hesabdan məxaric əməliyyatları məhdudlaşdırılır.

## 4. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

**4.1. Bankın hüquqları:**

4.1.1. Müştəri, kreditin və/və ya ona hesablanmış faizlərin, o cümlədən standart məlumatlandırma formasında və/və ya kredit xətti müqaviləsində göstərilən digər ödənişlərin ödənilməsini gecikdirdikdə, Bank Müştəridən dəbbə pulu tələb edə bilər. Ödənişlərin gecikdirilməsinə görə dəbbə pulunun məbləği gecikən əsas borc məbləğinə illik 15 (on beş) faiz hesablanmaqla tətbiq edilir.

4.1.2. Müştəri, bu Standart Şərtlərin 4.3.2-ci bəndində göstərilən hüququndan istifadə edərək kredit öhdəliyini vaxtından əvvəl icra etdiyi halda Bank, Müştəridən kompensasiya tələb edə bilər. Kompensasiyanın məbləği bu Standart Şərtlərin 4.3.1-ci bəndi nəzərə alınmaqla müqavilə müddətinin bitməsinə bir ildən çox müddət qaldıqda, vaxtından əvvəl ödənilmiş məbləğin 1 (bir) faizindən, bir il və daha az müddət qaldıqda isə 0,5 faizindən çox olmamalıdır.

4.1.3. Bank, Müştərinin bank hesablarından kredit və ona hesablanmış faiz borcunu, eləcə də dəbbə pulunu, həmçinin kreditin verilməsi ilə əlaqədar komissiya haqlarını və standart məlumatlandırma formasında və kredit müqaviləsində göstərilən digər ödənişləri Müştəriyə məxsus bank hesablarından və digər əsaslarla ona çatası vəsaitlərdən, o cümlədən digər valyutalardakı hesablarından cari kommersiya məzənnə kursu ilə konvertasiya olunaraq komissiya haqları (tətbiq olunduqda) tutulmaq şərtilə akseptsiz qaydada silə bilər.

4.1.4. Müştəri kredit öhdəliklərini vaxtında və lazımi qaydada yerinə yetirməzsə, Bank, Müştərinin razılığı olmadan bu müqavilə üzrə tələb hüquqlarını istənilən üçüncü şəxsə, o cümlədən və bununla məhdudlaşmadan, kollektor agentliklərinə, kollektor şirkətlərinə və bu sahədə ixtisaslaşmış digər hüquqi şəxslərə güzəşt etmək hüququna malikdir.

4.1.5. Bank, kreditdən istifadəyə görə nəzərdə tutulmuş faiz dərəcəsini, komissiyanı, habelə öhdəliklərin pozulmasına görə nəzərdə tutulmuş dəbbə pulunu birtərəfli qaydada azaltmaq hüququna malikdir.

4.1.6. Bank, Müştərinin maliyyə vəziyyətini yenidən araşdıra və nəticədə Müştəriyə ayrılmış kredit xətti limitinin saxlanılması, artırılması, azaldılması və ya ləğv edilməsini həyata keçirə bilər.

4.1.7. Müştəri kredit öhdəliyinin icrasını gecikdirdikdə, Bank, Müştərinin təqdim etdiyi əlaqə məlumatlarına, o cümlədən faktiki və/və ya qeydiyyat ünvanına özündə kredit borcu haqqında məlumatları (Müştərinin adı, soyadı, atasının adı, kreditin məbləği, qalıq borcu və s.), həmçinin kreditin ödəniş gününün dəyişdirilməsi barədə məlumatları əks etdirən bildiriş (xəbərdarlıq, pretenziya) göndərmək hüququna malikdir;

4.1.8. Müştəri, bu Standart Şərtlərin və kredit müqaviləsinin şərtlərini pozduqda, Bank tərəfindən tələb edilən sənədləri təqdim etmədikdə, Müştərinin əmlak vəziyyəti əhəmiyyətli dərəcədə pisləşdikdə və bunun nəticəsində kreditin qaytarılması təhlükəsi yarandıqda, Bank, bu Standart Şərtlər və müvafiq kredit müqaviləsi ilə nəzərdə tutulan kreditin tam və ya qismən Müştəriyə verilməsindən imtina edə bilər;

4.1.9. Müştəri, bu Standart Şərtlər və kredit müqaviləsi üzrə öhdəliyi vaxtında və lazımi qaydada icra etmədikdə, Bank girov predmetinə tutma yönəltmək hüququna malikdir;

4.1.10. "Ödəniş kartı ilə kredit xətti" məhsulu üzrə Müştəriyə verilmiş kartın istifadə müddəti bitdikdə, habelə Müştəri tərəfindən qeyri-qanuni məqsədlərlə kartdan istifadə edilməsi, limitlərin aşılması, hesabında borc yaranması və ya bu Müqavilənin digər şərtlərinə əməl olunmadığı aşkar olunduğu halda Bank, kartdan istifadə edilməsini və hesab üzrə əməliyyatları məhdudlaşdırmaq və bu Standart Şərtlərdən irəli gələn müqavilə münasibətlərinə xitam vermək hüququna malikdir.

**4.2. Bankın vəzifələri:**

4.2.1. Kredit bürolarından alınmış məlumatlar əsasında Müştəriyə kredit verilməsindən imtina edildikdə, Müştərinin müraciəti əsasında növbəti iş günündən gec olmayaraq bu barədə Müştəriyə yazılı şəkildə (kağız və ya digər davamlı daşıyıcıda) məlumat təqdim etmək;

4.2.2. Müştəri, bu Standart Şərtlərin 4.3.1 və 4.3.2-ci bəndlərində göstərilən hüququndan istifadə edərək kredit müqaviləsindən imtina etdikdə və ya krediti tamamilə və ya qismən Banka qaytardığı halda Müştərinin tələbi ilə Bankın tariflərində nəzərdə tutulmuş xidmət haqlarının ödənilməsi şərtilə Müştəriyə bu barədə müvafiq təsdiqedici sənəd vermək. Digər halda kreditin qalığı barədə müvafiq təsdiqedici sənəd üçün ödəniş bu Standart Şərtlərin 4.3.3-cü bəndi nəzərə alınmaqla tələb edilir;

4.2.3. Bank, bu Standart Şərtlər və onun çərçivəsində bağlanan kredit müqavilələri üzrə kredit öhdəlikləri tam şəkildə icra olunduğu təqdirdə Müştərinin yazılı müraciəti əsasında girov münasibətlərinə xitam verilməsi barədə ona yazılı sənəd verir;

4.2.4. Kreditin və kredit üzrə hesablanmış faizlərin uçotunu aparmaq;

4.2.5. Kreditdən istifadəyə görə faizlərin hesablanmasının və tutulmasının düzgünlüyünə riayət etmək.

**4.3. Müştərinin hüquqları:**

4.3.1. Müştəri, kredit (kredit xətti) müqaviləsi üzrə pul vəsaitinin ona verildiyi gündən 30 (otuz) gün müddətində heç bir səbəb göstərmədən kredit müqaviləsindən imtina edə bilər. Bu halda, Müştəri, müqavilə üzrə verilmiş pul vəsaitini və həmin pul vəsaitinin verildiyi gündən qaytarıldığı günədək hesablanan faizləri ödəməlidir. Bank tərəfindən ödənilən dövlət rüsumu və xidmət haqlarının məbləği istisna olmaqla, Müştəridən kompensasiya və hər hansı digər ödənişlərin alınması yolverilməzdir.

4.3.2. Müştəri, istehlak kreditini istənilən vaxt xəbərdarlıq etmədən tamamilə və ya qismən Banka qaytara bilər. Bu halda, kreditin qalıq müddətinə görə hesablanmış faizlər və (və ya) digər haqlar vaxtından əvvəl ödənilmiş məbləğə mütənasib olaraq azaldılır.

4.3.3. Müştəri, kredit müqaviləsinin qüvvədə olduğu müddətdə sorğu əsasında ödənişsiz olaraq kağız daşıyıcıda təqvim ili ərzində iki dəfə, digər davamlı daşıyıcıda isə istənilən zaman kreditin qalığı barədə hesabdan çıxarışı kreditin ödəniş qrafiki şəklində əldə etmək (ödəniş qrafikində həyata keçirilməli olan ödənişlər, belə ödənişlərin müddətləri, ödənişlərin strukturu, o cümlədən illik faiz dərəcəsi üzrə hesablanmış faizlər və tətbiq olunan digər əlavə xərclər göstərilir) hüququna malikdir.

4.3.4. Kredit bürolarından alınmış məlumatlar əsasında Bank tərəfindən Müştəriyə kredit verilməsindən imtina edildikdə, bu barədə Müştərinin ödənişsiz olaraq məlumat almaq hüququ vardır. Müvafiq məlumat Müştəri müraciət etdiyi halda, növbəti iş günündən gec olmayaraq Bank tərəfindən Müştəriyə yazılı şəkildə (kağız və ya digər davamlı daşıyıcıda) təqdim edilir.

4.3.5. Müştəri, kredit limitinin azaldılması, artırılması və ya ləğv olunması ilə bağlı Banka müraciət etmək hüququna malikdir. Bu məqsədlə Müştəri, 117 əlaqə nömrəsinə və ya müvafiq filiala yaxınlaşaraq Banka müraciət edə bilər.

**4.4. Müştərinin vəzifələri:**

4.4.1. Müştəri, krediti təyinatı üzrə istifadə edəcəyinə, həmçinin kreditdən hər hansı qeyri-qanuni məqsəd, o cümlədən çirkli pulların yuyulması (qeyri-qanuni yolla əldə edilmiş gəlirin leqallaşdırılması) və terrorizmin maliyyələşdirilməsi üçün istifadə etməyəcəyinə təminat verir və buna görə məsuliyyət daşıyır.

4.4.2. Müştəri, kredit və ondan istifadəyə görə hesablanmış faizləri və digər ödənişləri bu Standart Şərtlər, standart məlumatlandırma forması və/ və ya kredit (kredit xətti) müqaviləsində müəyyən olunmuş müddətlərdə Banka qaytarmağı öhdəsinə götürür.

4.4.3. Müştəri, bu Standart Şərtlərin 4.3.2-ci bəndində göstərilən hüququndan istifadə etdikdə, Standart Şərtlərin 4.1.2-ci bəndində göstərilən həcmdə kompensasiya məbləğini Banka ödəməyi öhdəsinə götürür.

4.4.4. Müştəri, Banka düzgün və təhrif olunmamış məlumatlar təqdim etməlidir. O, kredit müqavilələrinin müvafiq qaydada icrasına təsir edə biləcək bütün şərait və hadisələr barədə, o cümlədən adı, soyadı, atasının adı, qeydiyyat və faktiki ünvanlarında, mobil nömrəsində və Banka təqdim etdiyi məlumatlarda, həmçinin, kreditin alınması üçün Banka təqdim etdiyi sənədlərdə və/və ya məlumatlarda hər hansı dəyişiklik baş verdikdə, həmin dəyişikliyin baş verməsindən sonrakı 3 (üç) iş günü ərzində müvafiq təsdiqedici sənədləri və/və ya məlumatları Banka təqdim etməlidir. Müştəri tərəfindən məlumatların vaxtında verilməməsi nəticəsində yarana biləcək hər hansı mübahisəyə görə Bank məsuliyyət daşımır və Müştərinin ünvanına, mobil telefon nömrəsinə və digər əlaqə vasitələrinə göndərilmiş məlumatlar bütün hallarda Müştəriyə göndərilmiş və ona rəsmi qaydada çatdırılmış hesab olunur.

4.4.5. Müştəri, kredit və ona hesablanmış faiz borcunu, eləcə də, dəbbə pulunu, həmçinin kreditin verilməsi ilə əlaqədar komisyon haqlarını özünə məxsus olan bank hesablarından, o cümlədən digər valyutalardakı hesablarından cari kommersiya məzənnə kursu ilə konvertasiya olunaraq, komissiya haqları tutulmaq şərtilə akseptsiz qaydada silmək hüququnu Banka verir;

4.4.6. Müştəri, bu Standart Şərtlər və onun çərçivəsində bağlanan kredit müqavilələri üzrə öhdəliklərini pozduqda və ya vaxtında icra etmədikdə, Bank, bu öhdəliklərin icrasını təmin etmək üçün üçüncü

şəxslərin xidmətlərindən istifadə etdikdə, onun haqqında olan bütün məlumatların və sənədlərin, o cümlədən məzmunu bank sirrindən ibarət olan məlumatların və sənədlərin Bank tərəfindən üçüncü şəxslərə təqdim olunmasına əvvəlcədən razılıq verir. Bu razılıq Bank tərəfindən tələb hüququ üçüncü şəxslərə güzəşt olunduqda da qüvvədədir;

4.4.7. Bu Standart Şərtlərin qüvvədə olduğu müddət ərzində istənilən vaxt Azərbaycan Kredit Bürosundan və Asan-Finans dövlət portalından onun haqqında olan bütün məlumatların Bank tərəfindən sorğu edilməsinə və məlumatların ötürülməsinə, həmçinin beynəlxalq kart təşkilatlarının (VISA, Mastercard və s.) təqdim etdiyi xidmətlərə qoşulmaq və həmin xidmətlərdən istifadə etmək məqsədilə ona aid zəruri məlumatların ötürülməsinə əvvəlcədən öz razılığını bildirir.

## 5. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

5.1. Bu Standart Şərtlər, habelə onun çərçivəsində imzalanan müqavilələr üzrə üzərinə götürdüyü öhdəliyi icra etməyən və ya lazımi qaydada icra etməyən tərəf digər tərəfə vurulan zərərə görə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə müəyyən olunan qaydada məsuliyyət daşıyır və qarşı tərəfə vurduğu zərəri tam həcmdə ödəməlidir.

5.2. Bank, Müştəri ilə üçüncü şəxslər arasında olan əlaqələrə görə, həmçinin Müştəri ilə üçüncü şəxslərin bir-birinə qarşı hər hansı iddialarına görə heç bir məsuliyyət daşımır.

5.3. Müştəri təsdiq edir ki, bu Standart Şərtlərin onun tərəfindən qəbul edilməsi ilə bağlı ərizəsində Banka təqdim etdiyi əlaqə məlumatları (mobil telefon nömrəsi, e-mail adresi və s.) onun özünə məxsusdur və həmin məlumatlardan üçüncü şəxslərin qanunsuz istifadəsi nəticəsində yaranan risklərə görə tam məsuliyyət daşıyır. Müştəri, həmin məlumatlardan üçüncü şəxslərin qanunsuz istifadəsinə istinad edərək bu müqavilə əsasında verilmiş kredit(lər) üzrə öhdəliklərin yerinə yetirilməsindən imtina edə, həmçinin onun əlaqə məlumatlarına göndərilmiş standart məlumatlandırma formasının və digər sənədlərin özü tərəfindən təsdiqini mübahisələndirə bilməz.

5.4. Bu Standart Şərtlər çərçivəsində verilmiş kreditin valyutasının mübadilə məzənnəsinin Müştəri üçün əlverişsiz dəyişməsi nəticəsində yarana biləcək maliyyə itkisi riski Müştərinin üzərinə düşür. Bu cür riskin baş verməsi Müştərinin kredit öhdəliyinin icrasından imtina etməsinə və ya bu öhdəliyin icrasını gecikdirməsinə haqq qazandırmır və heç bir halda Müştərinin kredit öhdəliklərinin yenidən hesablanmasına səbəb ola bilməz.

5.5. Müştəri kreditdən məqsədli təyinatına uyğun istifadə etmədikdə və ya Müştəri tərəfindən Bankı aldatmağa yönəlmiş hər hansı bir hərəkətin edildiyi, o cümlədən özünün fəaliyyəti, iqtisadi-maliyyə imkanları və bu müqavilə üzrə öhdəliyin vaxtında və lazımi qaydada icrası üçün əhəmiyyətli olan digər faktlar (dövlət büdcəsinə, digər hüquqi və fiziki şəxslərə olan borclar, kreditorlar qarşısında icra edilməmiş mülki-hüquqi öhdəliklər və s.) haqqında verdiyi məlumatların və təqdim etdiyi sənədlərin həqiqətə uyğun olmadığı aşkar olunduqda Bank kreditin, o cümlədən hesablanmış faizlərin və öhdəliyin gecikdirilməsinə görə hesablanmış dəbbə pulunun dərhal qaytarılmasını tələb etməklə yanaşı, Müştəridən kreditin ümumi məbləğinin 1 (bir) faizi miqdarında dəbbə pulu tələb edə bilər.

## 6. MÜBAHİSƏLƏRİN HƏLLİ

6.1. Bu Standart Şərtlər və onun çərçivəsində Müştəri ilə bağlanan müqavilələrlə tənzimlənməyən məsələlər Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikası Mərkəzi Bankının normativ xarakterli aktları və Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə tənzimlənir.

6.2. Bu Standart Şərtlər və onun çərçivəsində Müştəri ilə bağlanan müqavilələrdən irəli gələn bütün mübahisələr danışıqlar yolu ilə həll edilir.

6.3. İstənilən mübahisənin danışıqlar yolu ilə həll edilməsi mümkün olmadıqda, həmin mübahisə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikasının məhkəmələrində həll olunmalıdır.

6.4. “Ödəniş kartı ilə kredit xətti” Məhsulu üzrə Borcalan hesab üzrə çıxarışda göstərilən əməliyyatlara etiraz etdikdə, hesab üzrə çıxarışın tarixindən 89 (səksən doqquz) təqvim günü müddətində Banka yazılı qaydada pretenziya təqdim etməli və etirazını əsaslandırdığı halları pretenziyada göstərməlidir. Bu

müddət ərzində pretenziya təqdim edilmədikdə və ya hesab üzrə çıxarışda göstərilən əməliyyatlara etirazın əsaslandırıldığı hallar pretenziyada göstərilmədikdə hesab üzrə çıxarışda göstərilən əməliyyatlar təsdiq olunmuş hesab edilir.

6.5.. "Ödəniş kartı ilə kredit xətti" Məhsulu üzrə göndərilmiş və ya təqdim olunmuş pretenziyalar qanunvericiliklə müəyyən edilmiş müddətdə Bank tərəfindən cavablandırılır.

## 7. FORS-MAJOR HALLARI

7.1. Bu Standart Şərtlər və onun çərçivəsində bağlanan müqavilələrin icrasına qarşısıalınmaz qüvvə təsir göstərərsə, Bank müqavilə münasibətləri üzrə öhdəliklərinin yerinə yetirilməməsinə görə məsuliyyət daşımır.

7.2. Qarşısıalınmaz qüvvənin təsirinə Bank tərəfindən nəzarət edilməyən, onun səhvi və ya laqeydliyi nəticəsində baş verməyən, qabaqcadan nəzərdə tutulması mümkün olmayan hadisələr, o cümlədən, müharibə, ictimai iğtişaş, yanğın, zəlzələ, vulkan, daşqın, tufan, epidemiya, pandemiya, epizootiya, karantin, dövlət və hökumət orqanlarının qərarları və bu kimi digər hallar aid edilir. Hər hansı hadisə fors-major kimi, yalnız səlahiyyətli dövlət orqanlarının rəsmi qərarına əsasən tanınır.

7.3. Fors-major halları baş verdiyi gündən etibarən müqavilə üzrə icra müddətinin axımı dayandırılır və axım bu hallar aradan qalxdıqdan sonra bərpa edilir.

## 8. YEKUN MÜDDƏALAR

8.1. Bank, Müştərinin vəziyyətini yaxşılaşdıran, o cümlədən onun borc yükünü yüngülləşdirən hallar istisna olmaqla, bu Standart Şərtlərin və Müştəri ilə bağlanan kredit müqaviləsinin hər hansı şərtini birtərəfli qaydada dəyişdirə bilməz. Digər hallarda əlavə və dəyişikliklərin edilməsi Bank və Müştərinin qarşılıqlı razılığı ilə həyata keçirilir.

8.2. Kreditin qismən vaxtından əvvəl ödənilməsi halında, Bankla razılaşma əsasında və ödəniş cədvəlində müvafiq dəyişiklik edilməklə dövri ödənişlərin məbləği azaldıla və ya dövri ödəniş məbləğləri saxlanılmaqla, kredit müddəti azaldıla bilər.

8.3. Kredit müqaviləsi ləğv edilərkən Bank, hesabdakı borc öhdəliyindən artıq ödənilmiş pul vəsaitinin qalığını Müştəriyə verir və ya Müştərinin göstərişi ilə onun müvafiq yazılı ərizəsinin alındığı gündən ən geci 7 (yeddi) təqvim günü keçənədək başqa hesaba köçürür. Hesabın qalığı Müştəri tərəfindən geri alınmadıqda və ya vəsaitin köçürülməli olduğu yeni hesab Banka bildirilmədikdə, həmin vəsait bağlanmış müştəri hesablarının uçotu aparılan hesaba köçürülür və Müştəriyə bu barədə yazılı məlumat verilir. Hesabın bağlanması nəticəsində müvafiq hesaba köçürülmüş pul vəsaitinin rejimi qanunvericiliklə tənzimlənir.

8.4. Müştəri, bu Standart Şərtlər üzrə xidmətlərdən istifadə zamanı qarşılaşdığı çətinliklər və suallarla əlaqədar müraciətlərini Azərbaycan Respublikasının Mərkəzi Bankına (AZ1014, Azərbaycan Respublikası, Bakı şəhəri, R.Behbudov küç. 90) ünvanlaya bilər.

BANKIN REKVİZİTLƏRİ:
"Unibank" Kommersiya Bankı"
Açıq Səhmdar Cəmiyyəti
Ünvan: Bakı ş, Nəsimi r-nu, R.Behbudov
küç., məhəllə 384, ev 55;
Azərbaycan Respublikası Mərkəzi Bankı
Hesablaşmalar Departamentində
AZ46NABZ01350100000000015944
saylı müxbir hesabı,
kod 505754,
SWIFT UBAZAZ22

VÖEN 1300017201